AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**Təsdiq edirəm:**
**“İctimai idarəetmə və sosial innovasiyalar”**
**kafedrasının müdiri: i.f.d., dos. E.Q.Məmmədov**
**12 sentyabr 2025-ci il**

# “Dövlət idarəçiliyi nəzəriyyəsi” fənni üzrə

# İŞÇİ-TƏDRİS PROQRAMI

# (SİLLABUS)

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00242** |
| **Fənnin növü:** | **əsas** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **Yaz** |
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **Qrup:** | **254, 255** |
| **Tədris yükü:** | **60 saat (mühazirə-30)** |
| **Kredit sayı:** | **10 (on)** |
| **Kafedra:** | **İctimai idarəetmə və sosial innovasiyalar** |

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** **Malayev Zakir-Abbas (Dosent)**

**E-mail ünvanı:** **malayev60@mail.ru**

**İş telefonu:** (012) 564 – 37 – 05

Bu sillabus “**İctimai idarəetmə və sosial innovasiyalar** ” kafedrasının dossenti i.f.d. **Malayev Zakir-Abbas** tərəfindən hazırlanmışdır.

**III. Fənnin təsviri**

Dövlət idarəçiliyinin həyata keçirdiyi siyasət ölkədə bərqərar olmuş milli idealogiyaya söykənməlidir. Siyasət dövlətin idarə olunması, milli əhəmiyyətli işlərin aparılması sənətidir. Milli idealogiyadan milli idealar yaranmalı və cəmiyyətin inkişaf səviyyəsindən asılı olaraq dəyişməlidir. Dövlət idarəçiliyi siyasəti milli ideyanı vətəndaşlara çatdırmalı və ona çatmaq yollarını göstərməlidir.

Qloballaşma nəticəsində postindustrial tendensiyanın inkişafı və bununla əlaqədar olaraq maddi istehsalın təbiətində baş verən mühüm dəyişikliklər dövlətin ictimai quruluşunda dəyişikliklərin meydana çıxmasına əhəmiyyətli təsirlər göstərir. Bu dəyişikliklər eyni zamanda dövlətlə vətəndaşların, fərdlərin qarşılıqlı münasibətlərində də özünü göstərir. Bu proseslər postindustrial dövlətə keçid üçün yeni zəminlərin yaradılması ilə də əlaqədardır. Indi elə vəziyyət yaranmışdır ki, qloballaşma ayrı-ayrı ölkələri bir-birindən qarşılıqlı şəkildə asılı edir və dövlət bu prosesin təbii gedişatına əngəl törətməməlidir.

Fikrimizcə, müasir dövrdə dövlət qlobal problemlərin həllini reallaşdıran institut olmalıdur. Aydındır ki, qlobal problemlərin həllində beynəlxalq, dövlətlərarası və dövləti məsələlərdə vətəndaş cəmiyyətlərinin iştirakı həlledici əhəmiyyət kəsb edir. Ümumiyyətlə, qlobal problemlərin həllində aktiv fəaliyyət göstərmək, ixtisaslaşdırılmış institutlarla əməkdaşlıq postindustrial cəmiyyətdə dövlətin mühüm funksiyalarından birinə çevrilmişdir.

İndi dövlət həm də ictimai rifahın istehsalçısıdır. Postindustrial cəmiyyətdə dövlət təkcə siyasi orqan kimi deyil, eyni zamanda istehsal agenti kimi də çıxış edir. Bu xüsusiyyət yalnız yüksək texnologiyalara deyil, başqa nemətlərə də aiddir.

Digər bir tərəfdən, dövlət nəhəng investordur. Postindustrial cəmiyyətdə dövlətin ənənəvi funksiyaları əhəmiyyətli dəyişikliklərə məruz qalır. Bu, ilk növbədə, investisiya sferasına aiddir. Dövlətin nəzarəti altında olan ənənəvi sahələrin – elm, təhsil, mədəniyyət, biliklərin qorunması və yayılması və s. – iri həcmli investisiyalara tələbatı kəskin şəkildə artırmışdır. Bu isə dövlətin investisiya fəaliyyətini əhəmiyyətli şəkildə genişləndirir. İnvestisiya prosesində təhsil sisteminə xərclərin artırılması intellektual sferanın inkişafı üçün daha önəmli

hesab olunmalıdır. Təhsilə çəkilən xərclər həm elmi industriyanın infrastrukturunun yaradılmasına, həm də iqtisadiyyatın digər sahələri üçün investisiya hesab olunmalıdır.

Cəmiyyətdə baş verən transformasiyalar dövlətin **social** olmasına gətirib çıxarır. Dövlətin sosial yönümlülüyü onun ədalətçilik ideyalarına daha çox cavab verməsini göstərir. Bu tendensiyanın inkişafı ilə xalqa yaxın hakimiyyətin və vətəndaş cəmiyyətinin qurulması dövlət idarəçiliyi ilə yerli özünüidarənin qarşılırlı münasibətləri sisteminin daima təkmilləşdirilməsini nəzərdə tutur. Ulu öndərimiz Heydər Əliyev və onun davamçısı möhtərəm prezidentimiz, İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət artıq Azərbaycanda dövlət idarəçiliyı ilə yerli özünüidarənin qarşılıqlı münasibətlərinin mütərəqqi sisteminin qurulması ilə nəticələnmişdir.

Dövlət idarəçilyi və yerli özünüidarə, həm birlikdə, həm də ayrılıqda elmi araşdırmanın nisbətən yeni və sürətlə inkişaf edən sahəsidir. Peşəkar dövlət və bələdiyyə quluqçularının hazırlanmasına zəruri tələbin olması, son illərdə ölkəmizdə bu elmdəki nailiyyətlərə marağı artırmışdır.

**IV. Fənnin məqsədi və vəzifələri**

Bu fənninin tədrisinin başlıca məqsədi tələbələrdə idarəçilik təfəkkürünü formalaşdırmaq və inkişaf etdirməkdir. Digər tərəfdən Dövlət idarəetmə nəsəriyyəsinin keçdiyi tarixi dövrlər, elmi məktəbləri, nəzəriyyələri, metodları, funksiyaları, bələdiyyə iqtisadiyyatı, mülkiyyəti, sahələrin idarə edilməsi və s. haqqında ətraflı biliklərə yiyələnməsinə nail olmaq əsas hədəflərdəndir. Eyni zamanda qeyri-standart və gözlənilməyən situasiyalarda yaradıcı qərarlar qəbul etmək, gələcək mütəxəssislərdə strateji və innovativ düşüncə tərzi formalaşdırmaq, dövlət və bələdiyyə idarəçiliyinin əsaslarına yiyələnmək, kommunikasya vərdişlərinə nail olmaq və s. bu fənnin tədrisinin mühüm məqsədlərindən sayılır.

**V. Öyrənmənin nəticələri:**

Bü fənnin tədrisi başa çatdıqdan sonra tələbə dovlət və bələdiyyə orqanlarının müxtəlif sahələrində, səviyyələrində işləməyi, kollektivə rəhbərlik etməyi, aktual iqtsiadi mövzular ətrafında müzakirələr aparmağı və mülahizələr söyləməyi bacaracaqdır.

**VI. Kursun proqramı**

Proqram 15 mühazirə, 15 seminar olmaqla 30 saata əsaslanır. Proqram mühazirələr, müzakirələr, tapşırıqlar və məşqlər, qrup işi, praktik məşğələlər və iş müzakirəsini əhatə edir.

**VII. Fənnin mühazirə mövzuları**

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. Dövlət idarəçilik nəzəriyyəsi elminin predmeti və vəzifələri.
2. Dövlət idarəçilik nəzəriyyəsinin metodoloji əsasları və metodları.
3. İdarəetmənin mahiyyəti və cəmiyyətin idarə olunmasına qoyulan tələblər.
4. Dövlət idarəçiliyinin məqsədləri və dövlətin ictimai funksiyaları.
5. Dövlətin mənşəyi, mahiyyəti və əsas əlamətləri.
6. Dövlətin tipləri və siyasi rejimləri.
7. Dövlət idarəetmə sistemi: anlayışı, növləri və xüsusiyyətləri.
8. Dövlət quruculuğu – dövlət idarəetmə sisteminin formalaşması prosesi kimi.
9. Dövlət siyasəti və dövlət strategiyası. Mahiyyəti, funksiyaları və ona olan tələbatlar.
10. Dövlət qərarları: anlayışı və mahiyyəti, dövlət idarəçiliyində qərarların qəbulunun əsas prinsipləri.
11. Dövlət Hakimiyyəti və Dövlət İdarəçiliyi.
12. Dövlət idarəetməsinin prinsipləri.
13. Azərbaycan Respublikasının dövlət hakimiyyət siteminin vəhdəti.
14. Dövlət idarəetməsinin hüquqi tənzimlənməsinin mahiyyəti və məzmunu.
15. Dövlət idarəetməsinin informasiya təminatı.

**VIII. Prerekvizitlər**

Yoxdur.

**IX. Fənnin tədris metodologiyası**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri və nümunəvi testlər elektron formada universitetin «Virtual Universitet»ində yerləşdirilib.

Virtual Universitetin ünvanı: **unec.edu.az**

**X. Fənnin mühazirə mətnləri ilə tanışlıq**

Fənn üzrə testlər bu mətnlərdən tərtib edilmişdir.

**XI. Əsas dərslik və dərs vəsaitləri**


1. *Dövlət və bələdiyyə idarəçiliyi Ş.Hacıyevin ümumi redaktəsi ilə Bakı 2011*
2. *Azadov E., Bağırzadə M., Əhmədov F. Azərbaycan bələdiyyələri, sosial strateji tədqiqatlar və analitik araşdırmalar. Bakı, 2004.*
3. *Səlimzadə M., Xəlilov Q. Yerli özünüidarəetmə: Anlayış, təcrübə, əməkdaşlıq, hüquqi əsasları. Bakı, 2010.*
4. *Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Antiböhranlı idarəetmə: müflisləşmə, iflas və sanasiya. Bakı, 1997.*
5. *Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Menecment. Bakı, 2007.*
6. *Şahbazov K.A., Məmmədov M.H., Həsənov H.S. Dövlət və bələdiyyə idarəçiliyi. Bakı, 2011.*


**XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Tələbə semestr ərzində 100 bal toplamalıdır. 20 bal seminar (məşğələ) dərsində toplanır. Tələbə seminar balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Tələbə hər 10 bal qiymətləndirildikdə yekunda hesabına 5 bal toplayır. Beləliklə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun. Tələbənin dərsə davamiyyəti qeydə alınır. Davamiyyət tələbənin aktivlik balının toplanmasında əhəmiyyət kəsb edir.

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

**XIII. Sərbəst işlər (Qrup işi):** nəzərdə tutulmayıb.

**XIV. Sərbəst işlər. Fənn üzrə qiymətləndirmə**

| | | |
|---|---|---|
| Tələbələrin sərbəst (qrup) işinə görə | - | - |
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | Yaxşı | C |
| 61-70 bal | Kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

İmtahan test üsulu ilə keçiriləcəkdir. Test 50 sualdan ibarət olacaqdır. Hər bir sual 1 baldır. Səhv cavablanan suallar, düzgün cavablanan sualların ballarını silmir. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bagli tələbənin hər-hansı şikayəti olarsa, Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

**Tərtib etdi:** **“İctimai idarəetmə və sosial innovasiyalar” kafedrasının dosenti, i.f.d. Z.A.Malayev**